**Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında Xanarx kanalının (II hissə) layihəsi üzrə Borc Sazişinin Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası hökuməti və İslam İnkişaf Bankı arasında Xanarx kanalının (II hissə) layihəsi üzrə Borc Sazişinin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu **Şərifova** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 23 noyabr 2000-ci il
574

Azərbaycan Respublikasının Qanunvericilik toplusu .- 2000.- 30 noyabr, № 11.- S.4656.